Yeni nəşrlər

# Milli heykəltaraşlığın canlı əfsanəsi




**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti akademik İsa Həbibbəylinin "Xalq rəssamı Ömər Eldarov: heykəltaraşlıq sənətinin canlı əfsanəsi" monoqrafiyası çapdan çıxıb.**

AMEA-dan mətbuata bildirilib ki, monoqrafiya Azərbaycan heykəltaraşlıq sənətinin inkişafında özünəməxsus yeri və mövqeyi olan Xalq rəssamı – akademik Ömər Eldarovun yaradıcılıq fəaliyyətinə həsr olunub. Akademik İsa Həbibbəyli Xalq rəssamı Ömər Eldarovu Azərbaycan heykəltaraşlıq sənətində düşünən heykəltaraşlıq məktəbinin yaradıcısı hesab edir. Monoqrafiyada Xalq rəssamı Tahir Salahov təsviri sənətdə və Xalq rəssamı Ömər Eldarov isə heykəltaraşlıqda sərt realizm üslubunun yaradıcıları kimi təqdim olunur.

Ümummilli lideri Heydər Əliyevin heykəlləri Xalq rəssamı Ömər Eldarovun qranitdə əbədiləşdirdiyi dövlətçilik abidələridir. Görkəmli elm xadimi, akademik Zərifə Əliyevanın heykəli isə Ömər Eldarovun təqdimatında heykəlin şeiriyyəti kimi canlandırılıb. Akademik İsa Həbibbəyli görkəmli heykəltaraş, Xalq rəssamı Ömər Eldarovu Azərbaycan heykəltaraşlıq sənətinin axırıncı mogikanı kimi qiymətləndirib.

Kitabda Xalq rəssamı Ömər Eldarovun həyat və fəaliyyətini, ulu öndər Heydər Əliyevlə görüşlərini əks etdirən fotoşəkillərdən istifadə olunub və ustad heykəltaraşın əsərlərinin fotosalnaməsi oxuculara təqdim edilib.

Nəşrin elmi redaktoru AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə, məsul redaktoru isə filologiya üzrə fəlsəfə doktoru dosent Ağahüseyn Şükürovdur.

*XQ*